**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 209**

**Bakı şəhəri, 8 may 2018-ci il**

**“Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanının icrası ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi barədə**

“Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547; 2015, № 8, maddə 974, № 11, maddə 1417; 2016, № 4, maddə 795, № 5, maddə 955, № 6, maddə 1192, № 9, maddə 1582, № 11, maddə 1938, № 12, maddə 2239; 2017, № 3, maddələr 473, 509, № 9, maddələr 1731, 1764; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 fevral tarixli 44 nömrəli qərarı) ilə təsdiq edilmiş “Elektron hökumət” portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı”nın 42-ci hissəsində “Azərbaycan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 31 avqust tarixli 323 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1459; 2017, № 11, maddə 2145) ilə təsdiq edilmiş "Güzəştli ipoteka kreditləşməsi məqsədi ilə yaşayış sahəsinin 1 kvadratmetri üçün orta bazar qiymətinin müəyyən edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bənddə "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - Cəmiyyət)" sözləri "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra - Fond)" sözləri ilə əvəz edilsin;

2.2. mətn üzrə ismin müvafiq hallarında "Cəmiyyət" sözü ismin müvafiq hallarında "Fond" sözü ilə əvəz edilsin;

2.3. 2.4-cü, 2.5-ci və 2.6-cı bəndlərdə ismin müvafiq hallarında "Müşahidə Şurası" sözləri "Himayəçilik Şurası" sözləri ilə əvəz edilsin;

2.4. 2.6-cı bənddən sonra aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd.** Bu Qaydada dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 oktyabr tarixli 422 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1887) ilə təsdiq edilmiş "Nəzarət zərfi dövlətə məxsus banklar tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci, 1.2-ci, 2.1-ci və 2.3-cü bəndlərdə "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun" sözləri ilə əvəz edilsin;

3.2. 2.2-ci bənddə "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının" sözləri "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurasının" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**